

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 140 (21.292)

18 iyul 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## “Əlincəqala” tarixi abidəsində bərpa işləri davam etdirilir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Tarixi abidələr baxımından Azərbaycan çox zəngin dövlətdir. Biz bu abidələri qorumalıyıq, bərpa etməliyik və xüsusilə ölkəmizin tarixi yerlərində qədim üsluba üstünlük verməliyik”.***



Naxçıvan Muxtar Respublikasında xalqımızın qədim mədəniyyətinin, qəhrəmanlıq və mübarizə tarixinin izlərini özündə yaşadan qala və istehkamların bərpasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən “Əlincəqala” tarixi abidəsində bərpa işləri aparılır.

İyulun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əlincəqalaya gəlmiş, burada həyata keçirilən bərpa işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, bərpa işləri zamanı Əlincəqalanın zirvəsinə yol çəkilmiş, gediş-gəliş xeyli asanlaşdırılmışdır. Əlincəqaladakı qədim yaşayış evləri, təsərrüfat binaları, qala divarları, mühafizə yerləri, səngər və bürclər, su hovuzları bütün incəlikləri ilə tədqiq olunmuş, onların forması müəyyənləşdirilmiş və tarixi görkəmi saxlanılaraq bərpa edilmişdir. İnşaat texnikası və planlaşma-məkan quruluşuna görə Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Hazırda qala divarlarındakı bürclərdə və zirvəyə gedən yol boyunca işıqlandırma sistemləri quraşdırılır.

Bərpa işləri ilə tanışlıqdan sonra Ali Məclisin Sədri burada çalışan inşaatçılarla görüşmüş, onları Ramazan bayramı münasibətilə təbrik edərək demişdir: Hər bir yerin qədimliyi, tarixi, mədəniyyəti onun abidələrində yaşayır. Əlincəqala tarixi abidəsində Azərbaycan tarixinin şanlı səhifələri yazılmışdır. Bu qala Naxçıvanın əyilməzlik simvoludur. Ona görə də Əlincəqalada bərpa işlərinin aparılması xalqımızın çoxəsrlik mədəni irsinin yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir. Digər bir tərəfdən bu işlərin aparılması tarixi-mədəni irsimizin gələcək nəsillərə çatdırılmasına xidmət edir. Bu mənada tikinti ustalarının burada çəkdikləri zəhmət xalqımızın tarixinin yaşadılması yolunda atılan addımdır.

Ali Məclisin Sədri bərpa işlərini keyfiyyətlə apardıqlarına görə inşaatçılara təşəkkür etmişdir.

İnşaatçılar adından minnətdarlıq edən Əfqan Teymurov demişdir ki, bu gün Əlincəqalada tarix yenidən yazılır. Abidənin bərpasında iştirak etmək ikiqat şərəfdir. Ali Məclis Sədrinin mütəmadi olaraq Əlincəqalada olması, bərpa işləri ilə maraqlanması, inşaatçılar üçün yaradılan şərait, onlara göstərilən qayğı hər kəsi ruhlandırır, daha əzmlə çalışmağa sövq edir.

Sonra Ali Məclisin Sədri inşaatçılarla xatirə şəkli çəkdirmişdir.

Həmin gün Ali Məclisin Sədri “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin tikintisi ilə də maraqlanmışdır.

Bildirilmişdir ki, Əlincə dağının ətəyində inşa olunan binada əsas tikinti işləri başa çatdırılmışdır. İş otaqları və ekspozisiya zalından ibarət olacaq bina qalanın tarixi görkəmi ilə ahənglik təşkil edəcəkdir. Muzeydə Əlincəqalada təmir-bərpa işləri zamanı aşkarlanan və vaxtilə burada yaşayan sakinlərin həyat tərzini özündə əks etdirən məişət əşyaları, qədim silah nümunələri mühafizə və nümayiş olunacaqdır. Həmçinin burada eksponatlarla yanaşı, qalada aparılan tədqiqat işlərinə aid müxtəlif kitablar, qəzet və jurnal materialları da toplanacaqdır.



Ali Məclisin Sədri “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin tikintisi və qalada aparılan bərpa işləri ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Sonda inşaatçılara bayram hədiyyələri təqdim olunmuşdur.


**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**


## Şərur rayonunun quruculuq xəritəsində yeni ünvanlar

***Şərur rayonunda tikinti-quruculuq tədbirləri hesabına əsaslı yeniləşmə prosesi cari ildə də uğurla davam etdirilir, rayon mərkəzində, kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlər inşa olunur.***

Onlardan biri rayon mərkəzində 2 nömrəli tam orta məktəb üçün tikilən yeni binadır. Burada “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları çalışırlar. Obyektdə dəmir-beton konstruksiyaların quraşdırılması həyata keçirilir. Yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün nəzərdə tutulmuş binanın tədris korpusunda dam örtüyü dəyişdirilib, hazırda binadaxili tikinti işləri görülür. Məktəbin yataqxana binası da yenidən qurulur.

Quruculuq işlərinə start verilmiş yaşayış məntəqələrindən biri də Kürçülü kəndidir. Bu yaşayış məntəqəsində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin bir qrup inşaatçısı 216 şagird yerlik 2 mərtəbəli məktəb binasının yenidən qurulması ilə məşğuldur.

Adıçəkilən yaşayış məntəqəsində inşa olunan kənd mərkəzi də 2 mərtəbədən ibarətdir. Obyektin birinci mərtəbəsində poçt, ATS, kitabxana, polis və baytarlıq məntəqələri üçün otaqlar ayrılacaq. İnzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, klubun əməkdaşları ikinci mərtəbədə fəaliyyətlərini davam etdirəcəklər. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün də bu mərtəbədə otaqlar ayrılacaq.

Kompleks quruculuq işləri Axaməd kəndini də əhatə edib. Üç mərtəbədən ibarət olan 192 şagird yerlik məktəb binasında müəllim və şagirdlərin ixtiyarına laboratoriyalar, 12 sinif otağı, idman zalı və idman müəllimləri üçün otaqlar, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər veriləcək.

Axaməddə də kənd mərkəzi inşa olunur. Müasir iş şəraiti yaradılacaq 2 mərtəbəli kənd mərkəzi axamədlilərin mövcud problemlərinin həllində mühüm rol oynayacaq. Bərbərxananın, gözəllik salonunun, ərzaq və təsərrüfat malları mağazalarının, həmçinin ət satışı dükanının fəaliyyət göstərəcəyi xidmət mərkəzi də kənd sakinlərinə dövlət qayğısının ifadəsidir.

Oğlanqala kəndində həyata keçirilən quruculuq tədbirləri “Artay” LTD Tikinti Şirkətinin inşaatçılarına həvalə edilib. Şirkətin bir qrup inşaatçısı kənd məktəbinin binasında əsaslı təmir-tikinti işləri aparmaqla məşğuldur. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 468 şagird yerlik məktəbin yeni dərs ilinə kimi istifadəyə verilməsi nəzərdə tutulub. Binanın dam örtüyü və döşəməsi vurulub, qapı və pəncərələr salınıb, daxildə və fasad hissədə suvaq işlərinə başlanılıb.

Şirkətin bir qrup inşaatçısı isə kənddəki köhnə mədəniyyət evinin binasında çalışır. Yenidən qurulan 2 korpuslu binanın birinci korpusunda kənd mərkəzi, ikinci korpusunda isə həkim ambulatoriyası yerləşəcək.

Tikinti-quruculuq tədbirləri yol infrastrukturunu da əhatə edir. Cari ilin ilk 6 ayında Şərur şəhərinin, Yengicə, Aralıq, Məmmədsabir, Sərxanlı kəndlərinin daxili yollarında, Şərur şəhərindən Naxçıvan-Sədərək magistral yoluna uzanan 4,5 kilometrlik yolda təmir işləri başa çatdırılıb.


**Xəbərlər şöbəsi**

# “Şərq qapısı” qəzeti Azərbaycanın müstəqilliyi dövründə

*(Əvvəli qəzetin 15 iyul 2015-ci il tarixli sayında )*

***1990-cı ilin əvvəllərindən baş verən qarışıq siyasi hadisələr bu-rulğanı ilin ortalarına doğru daha da güclənmişdi. Ən çətin gündə xalqı ilə bərabər olmaq üçün ümummilli lider Heydər Əliyev Moskvadan Naxçıvana qayıtmışdı.***

Doğma vətəninə qayıdışından sonra 22 iyul 1990-cı ildə Naxçıvan şəhərindəki Azadlıq meydanında xalq qarşısında ilk tarixi çıxışını edən ulu öndər Heydər Əliyev siyasi hadisələr fonunda mətbuatımızı da unutmamış, ilk müsahibəsini “Şərq qapısı” qəzetinə vermişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycana tarixi qayıdışından sonra bütün dünyanın nəzərlərini mətbuatın gücü ilə Naxçıvana yönəltməyə nail olmuşdur. Bu haqda “Şərq qapısı” qəzetinin 75 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qəzet redaksiyasına göndərdiyi təbrik məktubunda deyilir: *“1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən möhtərəm Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti ətrafında Azərbaycan Respublikasına o zaman rəhbərlik etmiş şəxslərin yaratdıqları sərt informasiya blokadasının yarılmasında “Şərq qapısı” qəzeti xüsusi rol oynamışdır...*

*Möhtərəm Heydər Əliyevin Naxçıvanın erməni təcavüzündən qorunması, muxtar respublikanın statusunun möhkəmləndirilməsi, sərt blokada və ağır iqtisadi şəraitdə yaşayan əhalinin soyuqdan və aclıqdan xilas edilməsi ilə əlaqədar qonşu İran və Türkiyə respublikaları ilə apardığı danışıqların, imzaladığı protokolların səmərəli nəticələri barədəki həqiqətlər qəzetin nəşr etdiyi xüsusi bülletenlər vasitəsilə Azərbaycan Respublikasının digər bölgələrindəki əhaliyə çatdırılırdı”.*

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə tarixi qayıdışını zəruriləşdirən, onu doğuran məqamlardan biri də Azərbaycan ziyalılarının “Şərq qapısı” qəzeti vasitəsilə xalqa etdikləri müraciətlər olmuşdur.

“Şərq qapısı” qəzetinin 9 may 1992-ci il tarixli sayında Zeynal Vəfanın qələmə aldığı “Şəxsiyyət” adlı məqaləsi dediklərimizə əyani sübutdur. Müəllif öz məqaləsində Azərbaycanın düşdüyü ağır böhranı təsvir etməklə Heydər Əliyev fenomeninin aydın təsvirini verir. Müəllif Azərbaycanı çətin vəziyyətdən qurtara biləcək şəxsiyyəti belə təsvir edir: “Əgər o şəxs faciələrimizi doğuran səbəbləri aşkarlayıb bizi boğazadək batdığımız böhran bataqlığından çəkib çıxara biləcəksə, öz



polad yumruğunu günahsız xalqımızı qızıl xəzinələri üstə dilənçi kökünə salmış acgöz Azərbaycan mafiyasının təpəsində Koroğlu kürzünə çevirə biləcəksə, buyursun... Bunun üçün qüdrətli şəxsiyyət olmaq gərəkdir. Belə bir şəxsiyyət isə 7 milyonun içində hələlik bir nəfərdir, təkcə bir nəfər: Heydər Əliyev”.

“Şərq qapısı” qəzetinin 14 noyabr 1992-ci il tarixli sayında respublika ziyalılarının xalqımızın böyük oğlu Heydər Əliyevə müraciəti dərc olunmuşdur. “Azərbaycan sizin sözünüzü gözləyir” başlıqlı tarixi müraciət Azərbaycan siyasi fikir tarixində xüsusi yer tutmaqla Heydər Əliyev şəxsiyyətinin dərkinə yönəlmiş əvəzsiz siyasi sənəddir. Müraciətdə deyilir: *“İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs sizsiniz!.. Yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə şəxs Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütlələrini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi-iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərinə öz layiqli töhfəsini verə bilər”.*

Elə həmin nömrədə müraciətə cavab olaraq ümummilli lider Heydər Əliyevin “Yeni, müstəqil Azərbaycan uğrunda” başlıqlı məktubu Onun siyasi fəaliyyətində dönüş nöqtəsi və Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı sayıla bilər. Bu tarixi gediş düşünülmüş siyasi uzaqgörənliklə yeni, müstəqil Azərbaycanın xilası demək idi.

1995-ci ilin axırlarında Azərbaycan Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdən sonra muxtar respublika ali qanunverici orqanının yeni tərkibdə fəaliyyətə başlaması yeni həyat quruculuğu sahəsində geniş imkanlar açmışdır. Bu səbəbdən 1996-cı ilin əvvəlindən qəzetin fəaliyyətində də canlanma yaranmış, onun üzləşdiyi maliyyə problemləri birdəfəlik həllini taparaq həftədə iki dəfə işıq üzü görməsi təmin edilmişdir.

Müstəqillik dövründə qəzetin ilk yubileyi 1996-cı ildə keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev “Şərq qapısı”nın Onun həyatında oynadığı rolu qiymətləndirərək qəzetin 75 illik yubileyini unutmamış, ölkə rəhbəri kimi qəzet redaksiyasına təbrik məktubu ünvanlamışdır. Qəzetin 26 noyabr 1996-cı il tarixli sayında dərc olunan təbrik Naxçıvan mətbuat tarixində ölkə başçısı tərəfindən qəzet redaksiyasına ünvanlanan ilk məktub idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin Onun həyat və fəaliyyətində mühüm rol oynamış doğma qəzetinə təbrik məktubu göndərməsi qəzetin respublika səviyyəli nüfuzunu artırmışdır. Dahi rəhbər təbrik məktubunda redaksiya əməkdaşlarının əməyini yüksək qiymətləndirərək onların gələcək fəaliyyəti istiqamətini də göstərirdi: *“Azərbaycan müstəqillik əldə etdikdən sonra “Şərq qapısı” qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, “Şərq qapısı” qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir”.*

Ümummilli lider Heydər Əliyevin “Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında” 27 mart 2000-ci il tarixli Fərmanını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 29 mart 2000-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamda muxtar respublikanın aparıcı mətbu orqanı olan “Şərq qapısı” qəzetinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, şəhər və rayon icra hakimiyyətlərinin orqanları olan qəzetlərin də problemlərinin həlli istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

“Şərq qapısı” qəzetinin xərclərinin azaldılması üçün redaksiyanın yerləşdiyi binanın Dövlət Mətbuat Komitəsinin balansına verilməsi və əsaslı təmiri də sərəncamda nəzərdə tutulan müddəalardan idi. 5 iyul 2000-ci ildə qəzetin yerləşdiyi redaksiya binası əsaslı təmirdən sonra istifadəyə verilir. Redaksiya binasının ən son texnoloji avadanlıqlarla təmin olunması və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin ofset üsulu ilə qəzet nəşrinə başlamasından sonra qəzetdə daha yüksək keyfiyyət dəyişiklikləri müşahidə edilməyə başlayır.

2001-ci ildə “Şərq qapısı” qəzetinin 80 illik yubileyi təntənə ilə qeyd edilir. Qəzetin 24 noyabr 2001-ci il tarixli nömrəsi 80 illik tarixi yola həsr olunmuşdur. Yubiley münasibətilə Xalq şairi Məmməd Araz, akademik İsa Həbibbəyli, “Ədalət” qəzetinin baş redaktoru Aqil Abbas və digər tanınmış simalar qəzetə təbrik məktubları ünvanlamışlar.

2004-cü ildə “Şərq qapısı” qəzetinə rəqəmli fotoaparat, müasir səsyazma avadanlıqları və digər texniki avadanlıqlar verilmişdir.

2006-cı ilin noyabrında “Şərq qapısı” qəzetinin 85 illiyi təntənə ilə qeyd edilmişdir. Bu münasibətlə qəzetin 4 noyabr 2006-cı il tarixli sayı 85 illik tarixi yola həsr olunmuşdur. Baş redaktor Məmməd Məmmədovun “Naxçıvanın 85 illik söz tribunası” başlıqlı məqaləsi mərhələli şəkildə qəzetin inkişaf tarixini özündə əks etdirir. Akademik İsa Həbibbəylinin “Şərq qapısı” məktəbi” adlı genişhəcmli məqaləsi “Şərq qapısı”nın tarixi və metodoloji mənzərəsini aydın canlandırır.

“Şərq qapısı” qəzetinin növbəti sayında verilmiş xəbərdən məlum olur ki, 85 illik yubileylə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qəzetin yaradıcı heyəti ilə görüşmüşdür. Qəzetlə bağlı fikirlərini bildirən Ali Məclisin Sədri müasir dövrdə qəzetçilik peşəsinin məsuliyyətindən, mətbuatın bir universitet və məktəb qədər cəmiyyət həyatı üçün əhəmiyyətindən söz açmışdır. Öz fəaliyyəti dövründə bütöv bir jurnalistlər nəsli yetişdirən “Şərq qapısı”nın həyat proseslərinin güzgüsünə çevrilməsi üçün yaradıcı heyətin çalışmalı və yaradıcılıq vərdişlərini artırmalı olduqlarını qeyd edən Ali Məclisin Sədri öz tövsiyələrini də vermişdir.

Azərbaycan mətbuatının 130 illik yubiley tədbirləri muxtar respublikada böyük təntənə ilə keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq, 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmişdir. Yeni mətbəədə Almaniya istehsalı olan birinci çap qülləsində çevirmə sistemi ilə təchiz edilmiş beşrəngli B2 formatlı ofset çap maşını, Almaniya və Yaponiya istehsalı olan müasir kağızdoğrayıcı, kəsici, qatlayıcı, cildləyici, dəstələyici və nömrəvuran avadanlıqlar quraşdırılmışdır.

Elə həmin gün Ali Məclis Sədrinin iştirakı ilə ən müasir texnoloji avadanlıqlarla təmin olunan mətbəədə “Şərq qapısı” qəzetinin ilk rəngli nüsxəsi çap olunmuşdur.

2011-ci ildə “Şərq qapısı” qəzetinin 90 illik yubileyi qeyd edilmişdir. Yubiley münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qəzetin kollektivi ilə görüşmüş və bu görüşdə uğurlu fəaliyyətinə görə “Şərq qapısı” qəzeti muxtar respublika Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Hazırda öz fəaliyyət tarixinin intibah dövrünü yaşayan qəzet dövlətin ardıcıl diqqət və qayğısı ilə nəşrini davam etdirir. Muxtar respublika rəhbərinin mətbuatın inkişafına göstərdiyi yüksək diqqət və qayğının müqabilində jurnalistlərimizdən yalnız öz əməli fəaliyyətləri, iti və kəsərli qələmi, operativliyi ilə onlara göstərilən inamı doğrultmaları tələb olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxışlarından birində demişdir: ***“Muxtar respublikada kütləvi informasiya vasitələri hər cür dövlət qayğısı ilə əhatə olunmuşlar. Belə bir şəraitdə jurnalistlərimiz öz üzərlərinə düşən tapşırıqları layiqincə yerinə yetirməli, dövlətçilik və ümummilli prinsipləri uca tutmalı, günün tarixini yazmalıdırlar”.***

***Ümid edirik ki, müstəqil dövlət quruculuğu, dövlətçilik, vətənpərvərlik, insanları maarifləndirmə kimi nəcib təşəbbüslərə xidmət edən “Şərq qapısı” qəzeti bundan sonra öz inkişafının daha böyük zirvələrini fəth edəcəkdir.***

**Surə SEYİD**
***filologiya üzrə fəlsəfə doktoru***

# “Mətbuat: tarix və müasirlik” mövzusunda növbəti dəyirmi masa Şərur rayonunda təşkil edilib

Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyi tamam olur. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il iyunun 2-də “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncamdan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilib. Tədbirlər Planında nəzərdə tutulmuş “Mətbuat: tarix və müasirlik” mövzusunda növbəti dəyirmi masa Şərur rayonunda keçirilib.

Naxçıvan Mətbuat Şurası üzvlərinin, şəhər və rayon qəzetləri redaktorlarının, “Şərurun səsi” qəzeti əməkdaşlarının iştirak etdiyi tədbiri Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova açaraq mətbuat işçilərini qarşıdan gələn yubiley münasibətilə təbrik edib.

Tədbirdə Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov “Azərbaycan milli mətbuatının keçdiyi yol”, “Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov “Mətbuat: tarix və müasirlik” və “Şərurun səsi” qəzetinin redaktoru Elman Məmmədov “Muxtar respublikada mətbuata dövlət qayğısı” mövzularında çıxış ediblər. Çıxışlarda bildirilib ki, dövrünün mütərəqqi fikirli ziyalısı Həsən bəy Zərdabinin rəhbərliyi ilə 1875-ci il iyul ayının 22-də nəşrə başlayan və bugünkü mətbuat orqanlarının sələfi olan “Əkinçi” qəzetində qısa bir zaman kəsiyində güclü mətbuat ənənələri yaradılıb, bu mətbuat orqanı Azərbaycanın ictimai-siyasi fikir tarixində, elmin, mədəniyyətin inkişafında böyük rol oynayıb. “Əkinçi”dən sonra fəaliyyətə başlayan digər mətbuat orqanları yaradılmış ənənələrdən yararlanaraq xalqın maariflənməsi yolunda səy və bacarıqlarını əsirgəməyiblər.



“Əkinçi” qəzeti tərəfindən bəyan edilmiş maarifləşmə, müasirləşmə, məfkurə saflığı kimi prinsiplərin mətbuatımızın inkişafında mühüm rol oynadığını deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev “Əkinçi” qəzetinin fəaliyyətinə yüksək qiymət verib, ölkəmizə rəhbərliyi dövründə mətbuat orqanlarının inkişafını diqqət mərkəzində saxlayıb.

Vurğulanıb ki, azadlıq ideyalarının carçısına çevrilən, xalqın ülvi arzularının reallaşmasına öz töhfəsini verən söz tribunamız müstəqillik illərində yenə də məhz dahi şəxsiyyət Heydər Əliyevin səyasində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Görkəmli dövlət xadimi bu istiqamətdə onlarla fərman və sərəncam imzalayıb, mətbuat üzərində olan senzuranın aradan qaldırılmasını təmin edib. Milli mətbuatın yubileylərinin keçirilməsini, jurnalistlərin mükafatlandırılmasını diqqət mərkəzində saxlayıb. Ümummilli liderin bu siyasətini ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir.

Bildirilib ki, mətbuata göstərilən dövlət qayğısından “Şərurun səsi” qəzeti də yararlanıb, son illərdə qəzet redaksiyasında maddi-texniki baza yenilənib, qəzet əməkdaşlarının fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Bu imkanlardan istifadə edən qəzet əməkdaşları rayon həyatının salnaməsini yaratmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

“Şərurun səsi” qəzetinin keçmiş əməkdaşlarından Mirhüseyn Seyidov, Yusif İbrahimov, uzun illərdir ki, qəzetlə sıx əməkdaşlıq edən İbrahim Yusifoğlu, Fəxrəddin Kərimov və başqaları çıxış edərək mətbuatımızın keçdiyi yoldan, fəaliyyət göstərdikləri dövrdə mətbuatın yaşadığı problemlərdən danışıblar. Qeyd edilib ki, dünənlə bu günü müqayisəedilməz olan Azərbaycan mətbuatı öz inkişafının yeni mərhələsindədir. Hərtərəfli qayğı ilə əhatə olunan mətbuat işçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək bu günün salnaməsini yaradır, mətbuatın inkişafına çalışırlar.

Dəyirmi masa iştirakçıları muxtar respublikamızda mətbuatın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, “Şərurun səsi” qəzetində yaradıcılıq axtarışlarının artırılması və qarşıda duran vəzifələr mövzusunda fikir mübadiləsi aparıblar.

**Xəbərlər şöbəsi**



# Sosial təhlükəsizlik ümumi rifahımızdır

*Sosial siyasət dövlətin ali maraqlarının yerinə yetirilməsi üçün tələb olunan zəruri sosial zəmanətlər verilməsi vəzifəsi daşıyır. Bunlar arasında ölkənin milli təhlükəsizliyinə də təsir edən sosial təhlükəsizliyin təmin olunması ən təxirəsalınmaz vəzifədir. Çünki insan amili üzərində qurulmuş sosial siyasət prioritetlərinə baxdıqda ümumi təhlükəsizliyin təmin olunması sosial dövlətin üzərinə düşən yük kimi həmişə özünü göstərir.*

Müasir cəmiyyətin həm iqtisadi, həm də sosial-mədəni inkişaf vektorlarına nəzər saldıqda insanları kifayət qədər dərindən düşündürən gələcəkdə onları nələrin gözlədiyi, ola biləcək çətinliklərə qarşı hansı qabaqlayıcı və profilaktik tədbirlərin görülməsi yönündə çox sayda problemlərlə rastlaşırıq. Bunlara bir də qloballaşmanın yaratdığı çox geniş informasiya və kommunikasiya əlaqələri zəminində yanaşsaq, planetin istənilən guşəsində əldə olunmuş bir mədəni nailiyyətlə çox sürətlə tanış olmaq imkanı qazandığımız kimi insan sağlamlığına, onun mənəviyyatına, mal-mülkünə və nəhayət, yaşadığı ölkənin suverenliyinə və xalqının milli dəyərlərinə təhlükə doğuran hər cür neqativ ünsürlərlə də qarşılaşmaq təhlükəsi ilə üz-üzə qalırıq. Bundan heç bir geriyə qayıtma mexanizminin olmadığı bir vəziyyətdə həyata keçirilən sosial siyasət tədbirləri arasında sosial təhlükəsizliyin təmin olunmasının əhəmiyyəti bir daha ortaya çıxır.

Bu gün Naxçıvanda yaşayan ailələr uşaqlarının gələcək təhsili, məzuniyyətdə yay tətilinin harada keçirilməsi və yaxud hansı model yeni avtomobil almaq kimi qayğılarla yaşayırsa, ötən əsrin 90-cı illərinin əvvəllərində insanlar üçün səhər tezdən evdən çıxıb axşam sağ-salamat qayıtmaq hər şeydən vacib bir tələbat halına gəlmişdi. Halbuki bir vətəndaş və onun ailəsi üçün bu təmin olunmadıqda yerdə qalan digər bütün ehtiyaclar ödənsə belə, onların heç bir dəyəri olmayacaqdı. Deməli, əsl rifahı müəyyən edən, cəmiyyətdə hər kəsin sahib olduğu yaradıcı gücün ortaya çıxıb məhsul verməsi üçün onun təhlükəsizliyinin təmin olunmasını və ona bir dövlət zəmanəti verilməsini ən vacib tələbat kimi qiymətləndirməliyik.

Sosial tələbatlar arasında təhlükəsizliyin mahiyyətinə baxdıqda onun vətəndaş azadlıqları, iqtisadi və ekoloji təhlükəsizliyin təmin olunması ilə paralel olaraq yarandığı, insanın məqsədyönlü fəaliyyətini stimullaşdıran bir model olduğu qənaətinə gəlirik. Bu, əlbəttə, təkcə hansısa bir qurumun müəyyən müddətə müəyyənləşdirdiyi tədbirlər planı, yaxud konkret işlərlə hasilə gələn bir nəticə olmayıb, hər bir insanın dünyaya gələndən ömrünün sonuna qədər ehtiyacı olduğu, bəzi məqamlarda onun özündən çox ailə üzvlərini, yaxın adamlarını da maraqlandıran bir ümummilli nailiyyətdir. Təhlil etdikdə, digər sahədə, məsələn, iqtisadi təhlükəsizlik məsələsində fərdin daha çox şəxsi maraqları üzə çıxırsa, sosial təhlükəsizliyə gəldikdə tam əksinə, buna daha çox ehtiyacı olan şəxslərin ön plana çıxması təsadüfi deyildir. Məsələn, bu gün dünyada cərəyan edən terrorizm, ekstremizm, narkomaniya və radikallıq hadisələri fonunda ölkəmizdə, xüsusilə muxtar respublikamızda belə halların doğura biləcəyi təhlükədən söhbət gedə bilməz. İnsanın özünə, onun şəxsiyyətinə və həyata baxışlarına çox ciddi zərərlər vuran belə halların qurbanlarının əksər hallarda uşaq və gənclər olduğunu nəzərə alsaq, onda yuxarıda qeyd olunan fikrimizi bir daha dəstəkləmiş oluruq. Belə olduqda yaşadığı cəmiyyətdə hər hansı bir xarici və daxili aqressorun təsir və təzyiqlərinə qarşı etibarlı qorunduğunu hiss edən şəxsi ən xoşbəxt insan adlandıra bilərik. Bu gün dünyada baş verən sürətli qütbləşmə, yoxsulluğun artması, köklü mədəniyyətə sahib bəzi ölkələrin dövlət iflası (defolt) səviyyəsinə gəlib çatması, səmavi kitablarda lənətlənmiş bəzi eybəcərliklərin qanuniləşdirilməsi fonunda bunları təmin edə bilmək çox çətin iş olub, dövlətin bütün hüquqi, sosial və mədəni idarəetmə sistemlərinin davamlı və dəqiq koordinasiya edilmiş fəaliyyətindən asılıdır. Hər bir cəmiyyətin iflasının son həddi, dövlətə inamın tamamilə yox olduğu vətəndaş müharibəsi məhz bu institutların, əslində, yox olduğu və siyasi liderin nüfuzdan düşdüyü məqamın bir aynasıdır. Dövlət-xalq, xalq-dövlət işbirliyinin hava-su kimi zəruri olduğu məqamlarda atılan qurtuluş addımları isə tarixdə hər kəsə nəsib olmayan bir Tanrı hədiyyəsidir. Bu baxımdan yaxın tariximizdə, cəmisi 20 il əvvəl Azərbaycanın tamamilə işğal təhlükəsi ilə üz-üzə qaldığı zamanda, bütün ictimai həyatı bürümüş xaos dövründə, zəif və zərif insanların axşam saatlarında evdən çıxmağa qorxduğu bir vaxtda gələn Qurtuluşun dəyərini indi daha dərindən dərk edirik. İstər dünyada, istərsə də bəzi qonşu dövlətlərdə siyasi oriyentasiyasızlıqdan, iqtisadi və sosial tərəddüdlərdən vaxtaşırı olaraq yaranan şok dalğaları dərhal həmin təhlükə ocaqlarını yenidən alovlandırmaqdadır. Şübhəsiz, burada insana verilən dəyəri, onun vətəndaş azadlıqlarına, fikir və düşüncələrinə, dini etiqad və inanclarına, iqtisadi fəaliyyət seçimlərinə və ən nəhayət, asudə vaxtına göstərilən diqqəti xüsusilə vurğulamaq lazımdır.

Sosial siyasət daimi, arası kəsilmədən həyata keçirilən proses olduğu qədər, cəmiyyətin inkişafı ilə paralel olaraq özünü yeniləyən, yeni imperativləri cəsarətlə qarşılayan bir məcrada olmalıdır. Yəni burada təkrara heç bir ehtiyac yoxdur. Başqa sözlə, əgər 1995-ci ildə aparılan sosial siyasət tədbirləri arasında əhalinin ifrat yoxsullaşmasının qarşısının alınması ön planda olmuşdusa, hazırkı dövrdə çiçəklənən Azərbaycanın daxilində boşluq tapmaq istəyən ünsürlərin yerindəcə zərərsizləşdirilməsi dövlətin, eləcə də hər bir vətəndaşın qayğısıdır. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən vətəndaş cəmiyyəti quruculuğunu ləngitmək, insan hüquq və azadlıqlarına kölgə salmaq, demokratik təsisatları zəiflətmək istəyən xarici qüvvələrə, onların havadarlarına qarşı ən layiqli cavab məhz insanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən davamlı işlər, yerinə yetirilən layihələr, rayonlarda, kəndlərdə əhali ilə keçirilən açıq görüşlərdir. Ölkəmizdə “Elektron hökumət” layihəsi istiqamətində atılmış addımlar, hər bir vətəndaşın maneəsiz olaraq dövlət və hökumət institutlarına çıxışının təmin olunması, internetin tamamən sərbəstləşdirilməsi sosial təhlükəsizlik məsələlərində önləyici tədbirlər qədər effektlidir.

Uğurlu sosial siyasət haqqında çox danışılsa da, bu, həmişə hər kəsə müyəssər olmayan bir nailiyyətdir. Hazırda müasir Azərbaycan cəmiyyəti öz inkişafının elə bir tarixi mərhələsini yaşayır ki, indi xalqımız həm uzaq, həm də yaxın keçmişdə baş vermiş taleyüklü hadisələri bir daha qiymətləndirib, ondan düzgün nəticə çıxarması üçün ən əlverişli bir zamana gəlmişdir. Azərbaycanın beynəlxalq aləmdəki imicinin yüksəlməsi indi artıq vətəndaşlarımızın da dünyaya baxışlarını, gələcəyə inamını yeni müstəvidə formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevdən miras qalmış Milli Qurtuluşla öz həyatının yeni bir intibah dövrünə qədəm qoyan Azərbaycan xalqı artıq əldə olunmuş sosial-siyasi sabitliyin nə qədər böyük bir sərvət olduğunu hər ötən il daha da dərindən mənimsəyir. Çünki bu, bütün cəmiyyətin rifahıdır.

**Əli CABBAROV**

# Yerli məhsullar yüksək keyfiyyətilə seçilir

***Bu gün yerli istehsal hesabına ərzaq məhsullarının artımı hər bir dövlət üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bu, etibarlı ərzaq təhlükəsizliyinin təmin edilməsinin ən əsas şərtləri sırasında yer alır. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, rəqabətə davamlılığı, ixrac potensialının artırılması yerli və keyfiyyətli məhsulların istehsalından birbaşa asılıdır.***

Görülən işlər sayəsində hazırda muxtar respublikamızda müxtəlif ərzaq sahələri üzrə istehsal həcmi əhəmiyyətli dərəcədə genişlənib. Məsələn, qida rasionunda və əhalinin ərzaq səbətində mühüm paya malik quşçuluq məhsulları sahəsində ölkəmizdə olduqca mühüm işlər görülür və bu sferada dövlət dəstəyi sayəsində vəziyyətin arzuolunan həddə çatdırılması üçün konkret addımlar atılır. Bunun nəticəsidir ki, artıq muxtar respublikada quş ətinə olan tələbat yerli istehsal hesabına ödənilir.

Ümumiyyətlə, muxtar respublikada quşçuluq sahəsinin inkişaf etdirilməsi, əhalinin keyfiyyətli quş əti, yumurta və digər quşçuluq məhsulları ilə təmin edilməsi qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. Dünyanın bir çox ölkələrində də quşçuluq sənayesi kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində aparıcı yer tutur. Quşçuluq heyvandarlığın ən tezyetişən və gəlirli sahələrindən biridir. Ona görə də bu sahəni inkişaf etdirməklə ət və yumurta kimi qiymətli yeyinti məhsullarının miqdarını sürətlə artırmaq və əhalinin həmin məhsullara olan tələbatını ödəmək mümkündür.

Muxtar respublikamızda quşçuluğun inkişaf tarixindən və onun səciyyəvi xüsusiyyətlərindən görünür ki, əhali bütün dövrlərdə bu sahənin inkişaf etdirilməsinə, məhsuldarlığın yüksəldilməsinə, mövcud olan cinslərin artırılmasına xüsusi diqqət yetirmişdir.

Muxtar respublikamızda bu sahədə idxaldan asılılığın azaldılması, əhalinin daha keyfiyyətli yerli məhsullarla təmin olunması, quş ətinə olan tələbatın ödənilməsi məqsədilə yaradılan broyler müəssisələri əhalinin bu vacib ərzaq məhsulları ilə təmin olunmasında mühüm əhəmiyyət daşıyır.

Quşçuluğun inkişafı məqsədilə Sahibkarlığa Kömək Fondu tərəfindən 2000-ci ildən 2015-ci ilin ötən dövrü ərzində sahibkarlıq subyektlərinə 7.025.500 manat kredit verilmişdir. Görülmüş tədbirlərin nəticəsi olaraq son illərdə istifadəyə verilən quşçuluq təsərrüfatlarının sayı 64-ə çatmışdır. Yaradılmış iri broyler təsərrüfatlarından “Araz-3”, “Ləzzət Broyler”, “Kırna” Məhdud Məsuliyyətli cəmiyyətlərində, “Ordubad Quşçuluq” Açıq Səhmdar Cəmiyyətində əhalinin tələbatını ödəyən müxtəlif çeşidlərdə quş əti məhsulları istehsal edilir. Bundan başqa, Şərur rayonundakı Mahmudkənddə fiziki şəxs Vəli Qasımov tərəfindən istehsal gücü ildə 1500 baş olan fərdi quşçuluq təsərrüfatının və Culfa rayonunun Kırna kəndində “Kırna” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal gücü saatda 4500 ədəd quş kəsimi sahəsinin yaradılması istiqamətində işlər davam etdirilir.

Muxtar respublikada heyvandarlığın və quşçuluğun inkişafı məqsədilə “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən 2011-ci ildə istehsal gücü saatda 3 ton, 2012-ci ildə istehsal gücü saatda 10 ton olan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması da muxtar respublikada kənd təsərrüfatının digər sahələri kimi, heyvandarlıq və quşçuluq təsərrüfatlarının səmərəli fəaliyyətinə şərait yaratmış, bu sahədə məhsul istehsalı artımına nail olunmuşdur.

Muxtar respublikada yaradılmış iri broyler və fərdi quşçuluq təsərrüfatları muxtar respublikanın quş ətinə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə, istehlakçıların hüquqlarının qorunmasına, ümumilikdə, kənd təsərrüfatının digər sahələrinin inkişafının sürətlənməsinə, yeni iş yerlərinin açılmasına şərait yaratmaqdadır.

Bütün bunlar göstərir ki, muxtar respublikada quşçuluq təsərrüfatlarının genişləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər görülür. Bu sahənin inkişafı ilə bağlı qarşıya qoyulan konkret tapşırıqlar dövlətimizin yerli istehsala verdiyi önəmlə bərabər, ərzaq təhlükəsizliyinin də təminatının bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün muxtar respublikada müasir və iritutumlu avtobusların alınıb gətirilməsi diqqət mərkəzində saxlanılır.*

# Bu il Naxçıvan şəhərinə yeni avtobuslar gətiriləcək



Hazırda Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin balansında 9 ədəd “PAZ”, 5 ədəd “LİAZ” və 37 ədəd “KİNG LONG” markalı iritutumlu avtobuslar vardır. Sərnişinlərə daha nümunəvi xidmət göstərilməsi məqsədilə cari ildə də iritutumlu avtobusların alınıb gətirilməsi nəzərdə tutulur.

Bu barədə qəzetimizə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda bildirilir ki, hazırda Naxçıvan şəhərində hər gün ayrı-ayrı marşrutlar üzrə, ümumilikdə, 57 ədəd müxtəliftutumlu avtobus və mikroavtobus xəttə çıxarılır. Son illər şəhərdaxili marşrutlarla yanaşı, şəhərətrafı məhəllələrdə və kəndlərdə də sərnişindaşıma xidmətinin yaxşılaşdırılması üçün tədbirlər görülüb, Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli, Bulqan kəndləri istiqamətində 7 nömrəli marşrut fəaliyyətə başlayıb. Mövcud 2 nömrəli marşrut xətti isə Tumbul kəndinədək uzadılıb ki, bu marşrutdan Hacıniyyət kəndinin sakinləri də istifadə edirlər. Həmçinin Şıxmahmud və Xəlilli kəndlərinə 8 nömrəli marşrut açılıb, 1 nömrəli marşrut xətti isə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinədək uzadılıb. Hər marşrutda avtobus və mikroavtobusların qrafik üzrə hərəkətinə, təyin olunmuş dayanacaqlardan düzgün istifadə etmələrinə dispetçerlər tərəfindən ciddi nəzarət olunur. Sürücülərin xüsusi geyim formalarından istifadə etmələri və sərnişinlərlə rəftarı da diqqət mərkəzindədir.

Qeyd edək ki, muxtar respublika paytaxtında şəhərdaxili və şəhərətrafı yol yataqlarının genişləndirilməsi, yollara keyfiyyətli asfalt örtüyünün salınması nəqliyyat vasitələrinin sərbəst hərəkətinə, sərnişinlərin rahat daşınmasına əlverişli şərait yaradıb. Naxçıvan şəhərində sərnişindaşıma işini nizamlamaq, əhalinin rahatlığını təmin etmək, eləcə də xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə kompleks tədbirlər həyata keçirilib, Naxçıvan Şəhər Nəqliyyat İdarəsi üçün yeni inzibati bina və avtobus parkı istifadəyə verilib.

**Kərəm HƏSƏNOV**

dünən **Naxçıvan şəhərində Came məscidi** bu gün





## Ramazan bayramı insanların müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir

*Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olunduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki:* ***"Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".***

Müsəlman aləminin iki böyük bayramından biri olan Ramazan bayramı hicrətin ikinci ilindən etibarən qeyd olunmaqdadır. Ramazan bayramı Hicri-Qəmər təqviminin doqquzuncu ayı Ramazan ayının ardından onuncu ay olan Şəvval ayının ilk üç günü boyunca qeyd olunan dini bayramdır.

Həzrəti Məhəmməd Peyğəmbər hədislərində buyurur ki, Ramazan və Qurban bayramlarının gecələri edilən dua, tövbə Allah-Taala tərəfindən qəbul olunar.

Ramazan bayramının məqsədlərindən biri müsəlmanların birlik şəklində və bir-birilə görüşərək bayramlaşmasıdır. Müsəlmanlar oruc ibadətlərini bitirdikdən sonra bir yerə yığılır, bayram namazı qılırlar. Bayramın başqa məqsədlərindən biri də müsəlmanların bir-birlərini ziyarət etməsi, qohum-əqrəbalarla görüşməsi, əgər arada inciklik varsa, bu incikliyin aradan qaldırılmasıdır. Bayramda kasıblar və yoxsullar da sevindirilməli, onlar da yeni paltar geyərək bütün müsəlmanlarla bir yerdə namaza gəlməlidirlər.

Bayram günləri oruc tutmaq günahdır. Bayram namazı oruc halında qılınmaz. Müsəlman bayram namazı qılmazdan qabaq mütləq yemək yeməlidir. Bayram günü bütün müsəlmanların bir-birlərini bayram münasibətilə təbrik etmələri və bir-birləri üçün dua etmələri təqdirəlayiq hesab olunur.

Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı da dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Bu bayram günlərində Azərbaycan xalqı respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsini ehtiramla yad edir, hər yerdə şəhidlərimizin ruhuna dualar oxunur. Ramazan bayramı həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir. Məhz bu birlik, həmrəylik dövlətimizin daha da güclənməsini, işğal altındakı torpaqlarımızın tezliklə azad olunmasını təmin edəcəkdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Ulu öndərimiz xalqımıza Ramazan bayramının böyük coşqu və sevinclə qeyd olunması kimi müqəddəs bir ənənəni miras qoymuşdur. Bu ənənə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ramazan bayramı münasibətilə iyulun 15-də xalqımıza ünvanladığı təbrikində deyilir: ***"Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq, mərhəmət, şəfqət və bərabərlik yoluna dəvət edir, əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir. İnsanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran bu bayram günlərində mömin vətəndaşlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirir, mənəvi zənginliyin, əxlaqi kamilliyin sevincini yaşayırlar.***

***Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar səslənir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz, saf niyyətiniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini sevimli xalqımızdan əsirgəməyəcəkdir".***

Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız ən yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Hər il Ramazan ayının fəzilətlərinin həyata keçirilməsi, iftar süfrələrinin açılması və bu bayramın həmrəyliklə qeyd edilməsi ənənə halını almışdır. İyulun 9-da müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərində təşkil olunmuş iftar mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ramazan xeyirxah niyyətlər, mənəvi kamillik və saflıq ayıdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in tamamlandığı, dünya müsəlmanlarının həmrəylik və qardaşlıq ayı olan Ramazanın fəzilətləri çoxdur. İslami dəyərləri yaşadan digər müsəlman xalqlar kimi, Azərbaycan xalqı da tarixin bütün dövrlərində öz milli və dini dəyərlərinə sadiq qalmış, adət-ənənələrini yaşatmışdır. Bu gün də dini dəyərlərimiz qorunur və yaşadılır. Ramazan ayı hər il ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq və sabitlik şəraitində qarşılanır".***

Qeyd edək ki, bayramdan öncə imkanı olan hər bir müsəlmanın fitrə verməsi vacibdir. "Fitr" oruclu olmama halını ifadə edir. Ramazan ayı boyunca oructutan müsəlmanlar bu ay sona çatıb Şəvval ayı girincə oruca son verirlər və bayram edirlər. Ərəbcə bu bayrama "idul-fitr" (fitr bayramı) deyildiyi kimi, həmin gün ödənməsi lazım olan sədəqəyə də "sadakatul-fitr" (fitr sədəqəsi/fitrə) və ya "zəkatul" (fitr zəkatı/fitrə zəkatı) deyilir. Fitrə zəkatının vacibliyini Məhəmməd Peyğəmbər hicrətin 2-ci ilində, Ramazan ayı bitdikdə oxuduğu xütbə zamanı buyurmuşdur.

Miqdarı etibarilə az görünən sədəqə geniş təbəqələr tərəfindən ödəndiyi üçün ehtiyacların aradan qaldırılmasına böyük təsir göstərir, sevinc və xoşbəxtliyin yayılmasına səbəb olur. Fitr sədəqəsi verməyin kimlərin vəzifəsi olduğu mövzusunda fərqli görüşlər var.

Özünün və ailəsinin illik qazancını təmin edəcək qazancı olan ağıllı, yetkin hər kəs üçün fitr sədəqəsi vermək vacibdir. Fitr sədəqəsini verən şəxs sədəqəni həm şəxsi üçün, həm də ehtiyacını təmin etməyə borclu olduğu ailə üzvləri, eləcə də Ramazanın son axşamı Günəş batmazdan əvvəl evinə gələn və qonaq olaraq qəbul etdiyi kəslər üçün verməlidir. Bu şəxslərin böyük-kiçik, yaxud müsəlman və ya qeyri-müsəlman olmaları arasında bir fərq yoxdur. İlahiyyatçıların fikrincə, fitrə buğdadan və ya undan 1,5 kq, xurma, arpa və ya kişmişdən 3 kq verilər. Qeyd olunan qida məhsullarının dəyərində pul da verilə bilər ki, bunun da minimal həddi adambaşına 2 manat təşkil edir. Əlbəttə, imkanı olan şəxs istəyərsə, bundan daha artıq məbləğdə pul verə bilər.

Fitrə zəkatı maddi vəziyyəti çətin olan adamlara (fəqirlərə) verilməlidir. Hər kəs öz kasıb qohumuna, ya qonşusuna fitrə zəkatı versə, daha yaxşıdır. Zəkatın hansı şəxslərə verilməsi ilə əlaqədar "Qurani-Kərim"in "Tövbə" surəsinin 60-cı ayəsində bildirilir: *"Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir".*

***Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Allah orucunuzu və dualarınızı qəbul eləsin! Ramazan bayramınız mübarək olsun!***

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası***
***Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

## Müharibə veteranının 95 yaşı qeyd olunub

***Şərur rayonundakı Mahmudkənddə yaşayan müharibə veteranı Həsənalı Nağıyevin 95 yaşı tamam olub. İyulun 15-də bu münasibətlə müharibə veteranı ilə görüş keçirilib.***

Tədbirdə iştirak edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 95 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir. Onlar minik avtomobilləri ilə təmin edilir, pensiya və müavinətlərlə yanaşı, hər ay onlara Prezident təqaüdü ödənilir, müharibə veteranları sanatoriya və pansionatlara müalicəyə göndərilir, texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunurlar. Bütün bunlar müharibə veteranlarının sağlamlıqlarının qorunmasına, həyat səviyyəsinin yüksəlməsinə xidmət edir.

Həsənalı Nağıyev göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial***
***Müdafiəsi Nazirliyinin***
***mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu 2015-2016-cı tədris ilində İbtidai sinif müəllimliyi ixtisası üzrə əlavə ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

Əvvəlki ali təhsil və hazırda (1 ildən az olmayaraq) işlədiyi vəzifə seçdiyi ixtisasa uyğun gələn şəxslər müvafiq qaydaya əsasən, müsabiqədə iştirak edə bilərlər.

Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
- *3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
- *sağlamlıq haqqında arayış;*
- *şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Sənədlər 2015-ci il iyul ayının 22-dən avqust ayının 22-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Müəllimlər İnstitutunun ikinci mərtəbəsində yerləşən Tədris şöbəsində qəbul edilir.

İnstituta sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə əlavə ali təhsil üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında uyğun qaydada ödənilir.

**Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 1**
**Əlaqə telefonu: (036) 545-79-23**
**Rektorluq**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 554